Rödl & Partner

# LUNCH & LAW

## ƏMƏK MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR VƏ ƏMƏK MÜNASİBƏTLƏRİNİN MÖVCUD QANUNVERİCİLİYƏ UYĞUN RƏSMİLƏŞDİRİLMƏSİ



**Jalə Nastakalova**

**Bakı,17.06.2025**

# MÜNDƏRİCAT


1 Əmək Məcəlləsinə edilən son dəyişikliklər

2 Əmək münasibətlərinin rəsmiləşdirilməsi

3 Praktik nümunələr və tövsiyələr

4 Suallar və şərhlər




# 1.1. 2024-CÜ İLİN YANVAR AYINDAN ETİBARƏN ƏMƏK MƏCƏLLƏSİNƏ EDİLMİŞ BİR QİSİM ƏSAS DƏYİŞİKLİKLƏR

2024-cü ilin yanvar ayından etibarən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilən əsas dəyişikliklər əmək münasibətlərinin rəqəmsallaşdırılması və şəffaflığının artırılmasına yönəlmişdir.

**Maddə 7. Əmək münasibətlərinin qanunvericiliklə və müqavilə bağlamaqla tənzimlənməsi**

*2. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci və 2-2-ci hissələri ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək münasibətləri əmək müqaviləsi elektron informasiya sistemində* ***elektron sənəd formasında*** *bağlandıqda yaranır.*







© Rödl & Partner

# 1.2. ƏMƏK MÜNASİBƏTLƏRİNİN ELEKTRONLAŞDIRILMASI

© Rödl & Partner

Maddə 44. Əmək müqaviləsinin forması

1. **Əmək müqaviləsi bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda kağız daşıyıcıda, digər hallarda isə elektron sənəd formasında bağlanılır.**

7-ci maddənin 2-ci hissəsində “hissəsi” sözü “və 2-2-ci hissələri” sözləri ilə, “elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra” sözləri “**əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlandıqda**” sözləri ilə əvəz edildi.

**Əmək müqavilələrinin elektronlaşdırılması**

- Əmək müqavilələrinin bağlanması, dəyişdirilməsi və xitam verilməsi prosesləri kağız daşıyıcılardan elektron sistemə keçid edilmişdir.
- Əmək müqaviləsi bildirişi ləğv olunmuşdur.
- Fiziki əmək kitabçaları ƏMAS (Əmək və Məşğulluq Altsistem) sistemi ilə əvəz edildi.

Maddə 14. Əmək münasibətləri sahəsində dövlət hakimiyyəti orqanlarının vəzifələri

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsilə həyata keçirir.**

Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

JALƏ ELÇİN QIZI NASTAKALOVA
Vətəndaş - 4NBQGYH

Mərkəzləşdirilmiş elektron informasiya sistemi

- ƏSAS SƏHİFƏ
- ŞƏXSİ KABİNET
- ƏMAS
- İŞƏGÖTÜRƏN VƏ İŞÇİLƏR ARASINDA RƏSMİ YAZIŞMALAR
- RƏSMİ YAZIŞMALAR
- MƏŞĞULLUQ
- HİMAYƏDAR AİLƏ
- SOSİAL ÖDƏNİŞLƏRƏ MÜRACİƏT

Menular | Təlimatlar

Sənəd | Ətraflı məlumat | Əməliyyat tarixçəsi | Qoşma fayllar | Əlaqəli sənədlər

Çap et

# Əmək müqaviləsi

## §1. Əmək müqaviləsini (kontraktı) bağlayan tərəflər haqqında məlumatlar

1.1. Bu Əmək müqaviləsi (kontraktı) (bundan sonra – əmək müqaviləsi) İşəgötürən

ROEDL ƏND PARTNER MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, ELÇİN USUB ARİF OĞLU, 1402447311, AZ1009, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, BƏŞİR SƏFƏROĞLU, ev 133, SAT PLAZA, 7-Cİ MƏRTƏBƏ, 335047T

(işəgötürən dövlət orqanı (qurumu), hüquqi şəxs və ya xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda adı, işəgötürən funksiyasını həyata keçirən vəzifəli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN-i), faktiki fəaliyyət göstərdiyi ünvanı, işəgötürən fiziki şəxs olduqda soyadı, adı və atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN-i), faktiki fəaliyyət göstərdiyi ünvanı, fərdi identifikasiya nömrəsi (FİN-i))

İşçi

JALƏ ELÇİN QIZI NASTAKALOVA, 4NBQGYH

(soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (FİN-i)) və

© Rödl & Partner

# 1.3. ƏMƏK MÜQAVİLƏSİNİN BAĞLANMASI VƏ ONA DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ QAYDASI

© Rödl & Partner

Elektron sənəd formasında bağlanılan əmək müqavilələrində dəyişiklik edildikdə, ilkin əmək müqaviləsi yenidən tərtib olunaraq təsdiq edilir (Maddə 46).

Əmək müqaviləsi və ya ona dəyişiklik tərəflərin gücləndirilmiş elektron imzası ilə imzalandıqda, son imzalanma tarixindən əmək müqaviləsi bağlanılmış və ya ona dəyişiklik edilmiş hesab olunur və hüquqi qüvvəyə minir (Maddə 49).

7.6. İşçi işəgötürənin kommersiya və istehsal sirrinin qorunmasına cavabdehdir və bu sirləri yaymağa görə qanunvericilikdə və bu Əmək müqaviləsində nəzərdə tutulan məsuliyyət daşıyır.

**§8. Əmək müqaviləsinə dəyişikliklər və əlavələr edilməsi barədə məlumatlar**

8.1. Bu Əmək müqaviləsinə birtərəfli qaydada aparılmış dəyişikliklərin, əlavələrin, düzəlişlərin hüquqi qüvvəsi yoxdur.

8.2. Bu Əmək müqaviləsinə aşağıdakı dəyişikliklər, əlavələr edilmişdir:

- İş yeri: əsas və ya əlavə: - Əsas
- Ümumi əmək məzuniyyəti (gün): ~~30~~ - 32
- Dəyişikliyin qüvvəyə minmə tarixi: 01.05.2025
- Dəyişiklik edilmiş müqavilələrin sayı: 2

(bütün dəyişikliklər və əlavələr təfsilatı ilə sadalanmalıdır)

8.3. Tərəfimizdən razılaşdırılmış dəyişikliklər və əlavələr imzalandığı tarixdən və ya ___ gündən gec olmayaraq qüvvəyə minir və bu Əmək müqaviləsinin tərkib hissəsini təşkil edir.

# 4NBQGYH000201 - Əmək müqaviləsinə dəyişiklik

Əlavə menyu | Əməliyyatlа

Sənəd | Ətraflı məlumat | Əməliyyat tarixçəsi | Qoşma fayllar | Əlaqəli sənədlər

| Kimə | | | | | |
|---|---|---|---|---|---|
| İcraçı qurum | Şöbənin adı | İcraçı şəxs | Daxilolma tarixi | Status | Vəziyyət |
| ıER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | | | 2025-01-08 11:39:44 | Qüvvəyə mindi | Aktiv |
| ıER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | | | 2025-01-08 11:39:36 | İmzalandı | Passiv |
| ıER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | | | 2025-01-08 11:37:36 | Şəxs tərəfindən imzalandı | Passiv |
| ELÇİN QIZI | | | 2025-01-08 11:33:59 | Təsdiqə göndərildi | Passiv |
| ıER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ | | | 2025-01-08 11:33:57 | Qeydiyyata alındı | Passiv |

© Rödl & Partner

# 1.4. YENİ QAYDALARLA ƏMƏK MÜQAVİLƏSİNİN XİTAMI

Əmək müqaviləsinə xitam verilməsi bu barədə əmrin (sərəncamın, qərarın) işəgötürən tərəfindən elektron informasiya sisteminə daxil edilərək gücləndirilmiş elektron imza ilə imzalandığı tarixdən hüquqi qüvvəyə minir. Əmək müqaviləsinə xitam verilməsi tarixi əmək müqaviləsinə xitam verilməsi barədə əmrin (sərəncamın, qərarın) imzalandığı tarixdən əvvəlki tarixə müəyyən edilə bilməz (Maddə 49).




5/30/25, 12:02 PM AppEmpContractTerminate

**Əmək müqaviləsinə xitam verilməsi barədə**

**ƏMR № HR 01-05/2025**

**BAKI-XƏTAİ** **14.05.2025**

[redacted] MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ" bölməsində [redacted] " vəzifəsində işləyən [redacted] haqqında aşağıdakı səbəb(-ləri) nəzərə alaraq:

İşçinin öz xahişi əsasında

**ƏMR EDİRƏM:**

1. [redacted] *MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ*" bölməsində " [redacted] " vəzifəsində işləyən [redacted] ilə bağlanılmış [redacted] nömrəli əmək müqaviləsinə, ***«AR ƏM-nin 68.2."a" - tərəflərdən birinin təşəbbüsü»*** maddəsinə əsasən yuxarıda göstərilən səbəbdən **30.05.2025** tarixindən xitam verilsin.

2. İşçinin **07.01.2024** tarixindən **30.05.2025** tarixinə qədər istifadə edilməmiş **50** məzuniyyət gününün son haqq-hesabının qanunvericiliyə uyğun şəkildə hesablanıb ödənilməsi *Mühasibatlığa* həvalə edilsin.

© Rödl & Partner

# 3.1. PRAKTİK NÜMUNƏLƏR VƏ TÖVSİYƏLƏR

© Rödl & Partner

1. Ənənəvi qaydada əmək müqaviləsi bağlanmış işçilərin kağız daşıyıcıda razılaşdırılmış və elektron sənəd formasında bağlanmış əmək müqaviləsində mövcud olmayan bəndləri electron əmək müqaviləsinə əlavə edilməlidir.

   Məs.: Əmək müqaviləsinin qarşılıqlı razılıq əsasında xitamı

2. Xitam əsasları sistemdə dəqiq seçilməlidir.

Hüquqşünasın xitamdan əvvəl işçinin yazılı ərizəsinin, töhmət aktlarının və ya pozuntu sübutlarının toplanmasını hüquqi dəlil olaraq təmin etməsi şərtdir.

3. İnsan resursları şöbəsi hüquqşünasla əməkdaşlıq etməli, riskli hallarda hüquqi məsləhətləşmələr aparılmalıdır.

# ROEDL ƏND PARTNER MMC

## Almaniyadan başlayan uğur hekayəmiz

- Rödl and Partner **50** ölkədə **116** ofisi olan inteqrasiya olunmuş peşəkar xidmətlər şirkətidir. Audit, hüquq, vergi konsaltinqi, idarəetmə və İT konsaltinq, vergi bəyannaməsi və BPO xidmətləri üzrə uğurumuz təxminən **6000** həmkarımızın fəaliyyətinin nəticəsidir.

- Roedl ənd Partner Azərbaycan Respublikasında **2013-cü ilin iyul** ayından fəaliyyət göstərir. Müştərilərimiz arasında Azərbaycanda iş aparan beynəlxalq korporasiyalar, diplomatik nümayəndəliklər və qeyri-kommersiya təşkilatları var. Bizim müxtəlif müştəri bazamız kənd təsərrüfatı, İT, maşınqayırma, pərakəndə satış kimi müxtəlif sahibkarlıq sahələrini əhatə edir.



© Rödl & Partner

# DÜNYADA RÖDL&PARTNER



*Zusätzliche globale Abdeckung durch unsere German Professional Services Alliance (GPSA) »

# Diqqətiniz üçün təşəkkürlər!

© Rödl & Partner

# BİZİMLƏ ƏLAQƏ

**Roedl ənd Partner MMC**

**Bakı, Yasamal rayonu, Bəşir Səfəroğlu 133, SAT Plaza, 5-ci mərtəbə**

**+994(12) 594 62 09**

**elchin.usub@roedl.com**

© Rödl & Partner